## Oruç Dadaşi Elman

### Şəhriyar

Göylərə açdı balu-pər, gör necə âli Şəhriyar
Şeyrü ədəb məfaxiri, qəlbi ziyali Şəhriyar

Xan nənəsin tanıtdırıb, aləmə eşqi-əqlinən
Doğru məhəbbətin sürən, zövqü səfali Şəhriyar

Öz Vətənin itirməyib, yurduna şanlı bir oğul
Oldu Vətən sevərlərin, dərdini hali Şəhriyar

Eşqinə verdiyi ürək, sındı töküldü şeyrinə
Öldü,dirildi hicridən, çəkdi məlali Şəhriyar

Dünyanı saldı heyrətə, bir dağa yazdığı şeir
Camlara doldurub fəqət, şəhü zülali Şəhriyar

Közlü Səhəndə verdi can, eylədi dağların şahı
Elli Səhəndidən alıb, cahu cəlali Şəhriyar

Saldı Humai rəhməti, aləmə ayrı təntənə
Əydi Əliyə başını, tapdı kəmali Şəhriyar

Ulduzu gizlədən bulud, qoymadı parlasın günəş
Ömrünü eyləmiş nacaq, sevgi misali Şəhriyar

Türkü dilin əsil bilib, el qorusun gərək dedi
Güclü çinarə dönməyə, əkdi nəhali Şəhriyar

Can quşu keçdi mərzidən, qırdı zəmanə zəncirin
Yolladı qardaş ellərə, mürgü xəyali Şəhriyar

Hər qəzəlin gəlinləşən, bir qıza bənzədib bütün
Söz telinin daragına, verdi məcali Şəhriyar